# YENİ DAXİLOLMALAR

## ƏLYAZMALAR İNSTİTUTUNA "İRŞAD ƏL-ƏZBAN İLA ƏHKAM ƏL-İMAN" ƏSƏRİNİN ƏLYAZMA NÜSXƏSİ HƏDİYYƏ OLUNUB

XIII-XIV əsrin ilahiyyatçı alimi, Nəsirəddin Tusi məktəbinin görkəmli nümayəndəsi Cəmaləddin Həsən ibn Yusif ibn Mütəhhər Əllamə Hillinin ərəb dilində "İrşad əl-Əzban ila əhkam əl-iman" əsərinin XIX əsrin əvvəllərinə aid əlyazma nüsxəsi AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna hədiyyə olunub. Dəri cildli əlyazma hicri 1220 - ci / miladi 1805-ci ildə Məhəmməd Sadiq bin Məhəmməd Həsən tərəfindən nəsx xətti ilə köçürülüb.

# NAİLİYYƏTLƏR

## ƏLYAZMALAR İNSTİTUTUNUN NƏŞRLƏRİ VII BAKI BEYNƏLXALQ KİTAB SƏRGİ –YARMARKASINDA NÜMAYİŞ OLUNUB

6-10 oktyabr 2021-ci il tarixlərində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində "VII Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası" nın açılış mərasimi keçirilib. Sərgidə AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu üçün ayrılmış guşədə elmi-tədqiqat müəssisəsinin sərgiyə təqdim etdiyi 2020-2021-ci illərdə nəşr olunmuş 50-dən çox müxtəlif adda ədəbiyyat: institutun əlyazmalar əsasında nəşrə hazırladığı kitablar, türk, fars və ərəbdilli əlyazmaların çap kataloqları, İnstitutda qorunan əlyazmalar əsasında hazırlanan nəşrlər, institutda yerinə yetirilən elmi tədqiqat işlərinin ən mühüm nəticələrini əks etdirən kitablar, əməkdaşların əsərlərinin dərc olunduğu və müəssisədə çapa hazırlanan elmi jurnallar, konfrans materialları oxucuların ixtiyarına verilib. Qeyd edək ki, İnstitutumuz Sərgi-Yarmarkanın təşkilat komitəsi tərəfindən bu fəaliyyətinə görə xüsusi ***Diplomla*** təltif edilib.

# TƏLTİFLƏR

## ƏLYAZMALAR İNSTİTUTUNUN ALİMLƏRİ NİZAMİ GƏNCƏVİNİN 880 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ XATİRƏ NİŞANI İLƏ TƏLTİF EDİLİB

25 noyabr 2021-ci il tarixində "Nizami Gəncəvi Beynəlxalq Forumu" çərçivəsində Fairmont otelində Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi ilə, "Nizami Gəncəvi ili" çərçivəsində çap edilən Nizami Gəncəvi "Xəmsə" sinin özbək dilinə tərcüməsinin təqdimat mərasimi keçirilib. Azərbaycan və Özbəkistanın tanınmış alimləri, dövlət rəsmiləri, nizamişünaslar, elm və ictimaiyyət xadimləri, media nümayəndələrinin də iştirak etdiyi bu mötəbər tədbirdə təqdim olunan nəşrin ön söz müəlliflərindən biri AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli də çıxış edib. Alim altı il ərzində Özbəkistanın Xalq şairi Camal Kamal tərəfindən orijinaldan özbək dilinə çevirilmiş "Xəmsə" nin bu nəşrinin əhəmiyyətindən söz açıb, onun Nizami irsininin öyrənilməsi və tədqiqi

baxımından çox əhəmiyyətli mənbə olacağını bildirib. Tədbirin sonunda Azərbaycan Respublikasının Mədəniyyət Nazirinin birinci müavini Elnur Əliyev mərasimdə iştirak edən Nizamişünas alimləri, o cümlədən AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimlini və həmin institutun "Nizami Gəncəvi əlyazmalarının tədqiqi şöbəsi" nin aparıcı elmi işçisi, fil. ü.f.d. Kərimulla Məmmədzadəni Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təsis etdiyi "Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş xatirə nişanı" ilə təltif edib.

## MƏHƏMMƏD FÜZULİ ADINA ƏLYAZMALAR İNSTİTUTUNUN QONAQLARI

1 iyul 2021-ci il tarixində Başqırdıstan Respublikası Başqırd Dövlət Universitetinin Tarix kafedrasının dos., tar. e.n. Nadir Salih AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun qonağı olub. Qonağa institutun tarixi, beynəlxalq əlaqələri, burada mühafizə olunan əlyazmalar və yerinə yetirilən tədqiqat işləri barədə ətraflı məlumat verilib. Nadir Salih Ufa şəhərinin 3 arxivində mövcud olan ümumilikdə 2500 əlyazma üzərində apardığı "Ərəb qrafikalı əlyazmalar Başqırdıstanda (tarixi oçerk)" monoqrafiyasını institutun kitabxanasına hədiyyə edib və "Cənubi Qafqaz ölkələrinin əlyazma fondlarında mühafizə olunan ərəb qrafikalı əlyazmalar" mövzusunda elmi tədqiqat aparmaq və bu məqsədlə institutun fondlarında mövcud olan arxeoqrafik sənədlərlə tanış olmaq istədiyini bildirib. O, Əlyazmalar İnstitutunun Ekspozisiya zalında nümayiş olunan qədim əlyazmalarla, oxu zalındakı ərəbdilli əlyazmaların kataloqu ilə tanış olub.